# Ulduzlar sönmür





Bəzən həyatda elə hadisələr olur ki, onun təsadüf, yaxud zərurət olduğunu anlaya bilmirsən. Onların da eyni ayda dünyaya gəlməsinin, uzun illər eyni səhnəni paylaşmalarının, tərəf müqabili kimi yaddaqalan obrazlar yaratmasının da təsadüf, ya zərurət olduğunu söyləmək çətindir. Bir şey aydındır ki, onlar səhnəmizə cüt ulduz kimi gəlib qoşa parladılar. Gülüş dünyamızın güldürə-güldürə düşündürən parlaq simaları: Lütfəli Abdullayev və Bəşir Səfəroğlu. Niyə məhz onlar?

Rəqəmlərə nəzər yetirək. Lütfəli Abdullayev 1914-1973, Bəşir Səfəroğlu 1925-1969. Bu il Lütfəli Abdullayevin anadan olmasının 105 ili tamam olur, Bəşir Səfəroğlunun ölümündən isə 50 il ötür...



Teatr və kino... Bu sənət dünyasında təkbaşına nəsə etmək, uğur qazanmaq, ulduza çevrilmək çox çətindir. Düşündürücü ssenari, dram əsəri, gözəl səhnə tərtibatı, ürəyəyatan musiqi, güclü aktyor oyunu. Tamaşaçı həmişə bunu gözləyir, bunu istəyir, buna dəyər verir. Bütün bunların fonunda bir fərd kimi seçilmək, sevilmək isə tale məsələsidir. Sevimli aktyor olmaq üçün aktyor kimi doğulmalı, obrazı canınla, qanınla, ruhunla, hiss və duyğularınla yaşatmalısan...

Bu bahar günündə həyat və yaradıcılıqlarında üst-üstə düşən cəhətləri, aktyor peşəkarlığı, ölməz obrazları ilə yaddaqalan bu iki sənətkarı eyni yazıda xatırlamaq heç də təsadüfi deyil. Çünki yazını Beynəlxalq Teatr Gününə planlaşdırmışdıq. Təbii ki, mən sənətşünas deyiləm və bu böyük sənətkarların oyun tərzini, fərqli və oxşar cəhətlərini bu baxımdan təhlil etmək məsuliyyətindən uzağam, lakin yazını hazırlayarkən onlar haqqında yazılanları oxuyub belə bir qənaətə gəldim:

İstər Lütfəli Abdullayev, istər Bəşir Səfəroğlu dünya gülüş ustalarından heç də geridə qalmırlar, bəlkə də bir addım öndədirlər.

Sovet kinosunun istehsalı olan "Qafqaz əsiri" filmi yəqin ki, yadınızdadır. O zamanın tamaşaçılarının belə bir yekdil fikri vardı: Morqunov, Nikulin və Vitsin üçlüyü olmadan həmin kino çətin ki, bu qədər şöhrət tapa, ölməzlik qazana bilərdi. Eyni fikri Sovet dövründə, "Azərbaycanfilm"in istehsal etdiyi "Ulduz" filmi haqqında da söyləmək olar: Lütfəli Abdullayev (Məhəmməd), Nəsibə Zeynalova (Züleyxa) və Bəşir Səfəroğlu (Gülümsərov). Bu filmi bu üçlüksüz təsəvvür etmək mümkündürmü?!. Eləcə də Lütfəli Abdullayev və Bəşir Səfəroğlu cütlüyü. Bu cütlük də bir çox qoşa obrazlara möhür vurub.

Hər ikisi baharda dünyaya gəlib, hər ikisi 14 yaşında səhnəyə çıxıb. Əvvəl dramatik rollarda sınağa çəkilib, sonra komediya janrında yaradıcılıqlarını davam etdiriblər. Lütfəli Abdullayev Bəşir Səfəroğlundan yaşca böyük idi və təbii ki, səhnəyə də ondan tez gəlmişdi. Odur ki, ayrı-ayrı vaxtlarda eyni obrazlarda çıxış etmişdilər. Məsələn, "Məşədi İbad"da — Məşədi İbad, "Hacı Qara"da — Hacı Qara, "Hacı Kərimin Aya səyahəti"ndə — Hacı Kərim, "Beş manatlıq gəlin"də — Möhsün, "Gözün aydın"da — Qəhrəman və b. obrazları hər ikisi özünəməxsus tərzdə oynamışdı. Onlar həm də gözəl tərəf müqabili idilər, birgə oynadıqları səhnə o qədər təbii, canlı, inandırıcı və maraqlı alınırdı ki, tamaşaçı alqışının ardı-arası kəsilmirdi.

"Durna" tamaşasında Uzun-Qoşun höcətləşməsini yada salın: "Vur-vurum!", "Qollarını çırmalayıb baş-başa, göz-gözə, nəhayət dimdik-dimdiyə yorulmaq bilmədən vur-vurum!" - deyə biri-digərini "döyüşə" çağırır. Tamaşaçı intizardadır: kim birinci əl qaldıracaq, ancaq döyüş baş tutmur, lakin onların bu vəziyyəti böyük gülüş doğurur. Maraqlı burasıdır ki, hər iki aktyor ciddi bir səhnə fonunda ürəkdolusu güldürə bilirdi tamaşaçını. "Əhməd haradadır" filmində epizodik, kiçik bir rol var: sərxoş. Bəşir Səfəroğlu bu rolu çox gözəl oynayır, onu yaddaqalan bir obraza çevirə bilir: "Yalqızam, yalqız!" sütuna söykənib, ayaq üstə zorla dayanan, bu pis vərdişə görə hamı tərəfindən atılan bu içki aludəçisinin obrazını yaratmaqla Bəşir Səfəroğlu sərxoşluğun faciəsini özünəməxsus şəkildə, böyük ustalıqla açıb göstərir. Onun dərdinə şərik olan bir nəfər var: Zülümov — Lütfəli Abdullayev: "Can, ay yetim!" — deyib onu qucaqlayır. Düşdükləri durum nə qədər acı olsa da yenə də gülüş yaradır: acı islahedici...

Ümumiyyətlə, hər iki aktyor obrazlara xarakterik cizgilər əlavə edib onu daha da şiddətləndirməyi bacarır, lakin hər şeyin ölçüsünü bilir, əndazədən çıxarmırdılar. Əslində onlar tamaşaçını güldürməyə çalışmırdılar, bu gülüş özü-özünə yaranırdı. Adi bir hərəkət, bir söz, bir jest bəs edirdi ki...

İlk dəfə "Sevil" tamaşasında Gündüz rolunda səhnəyə çıxan Bəşir Səfəroğlu Böyük Vətən müharibəsindən kontuziyalı vəziyyətə qayıdır, nitqini itirir, eşitmədə qüsur yaranır. Belə vəziyyətdə də o səhnədən ayrılmır, rejissorlar ona sözsüz obrazlar verir. O, bu rolların öhdəsindən bacarıqla gəlir. Sonra tale üzünə gülür, nitqi düzəlir və gözəl obrazlar yaradır. Onun yaddaqalan obrazları çoxdur, "Ulduz" filmindəki elmi işlə məşğul olan Gülümsərov isə bu obrazların zirvəsidir:

*Yazarsan ki, mən,*
*mən Gülümsərov,*
*Həm ciddi, həm də*
*şən Gülümsərov.*

Hər addımbaşı: "Möhsün, yaz!" - deyib özünü elm cəfakeşi kimi göstərən Gülümsərov da sonda acınacaqlı vəziyyətə düşür: "Məni bu işə vadar edənlər tarix qarşısında cavab verəcəklər" - deyib elmdən uzaqlaşır.

Bəşir Səfəroğlu 7 filmə çəkilib: "Aygün", "Yun şal", "Yaşamaq gözəldir, qardaşım!", "Qəribə əhvalat", "Əhməd haradadır", "Ulduz", Tacikfilmin istehsalı olan "Xoca Nəsrəddinin 12 qəbri". Xoca Nəsrəddin aktyorun ekranda yaratdığı son obraz oldu, əslində isə o, çox rollar oynaya bilərdi, əlbəttə ömür vəfa etsəydi. Tale onunla qəribə bir oyun oynayırdı. Şan, şöhrət artdıqca ömrü qısalırdı. Bir vaxt nitqinin açılacağına inanmayan Bəşirin, nədənsə, sağalmaz xəstəlikdən qurtulacağına inamı vardı. Bu inamı onda gözləri qarşısında hər gün sözün həqiqi mənasında şam tək əriyən bu istedad sahibinə onun doğmaları, yaxınları, inandığı adamlar yaradırdı. Ömrünün son günlərini belə yaşadı aldanışla, ümidlə. Ağrılara güc gəlib səhnəyə çıxdı, bir vaxt "həyat verdiyi", yaşatdığı obrazları ölməyə qoymadı.

Lütfəli Abdullayevin səhnə taleyi aktyorun üzünə "Arşın mal alan" filmindəki Vəli rolundan sonra gülmüşdü. Onadək kiçik, epizodik rollar və birdən-birə böyük kinoda böyük rol. Tamaşaçı onu elə bu obrazda gördü və sevdi, səhnəmizin, kinomuzun əvəzolunmaz Vəlisi kimi yaddaşlarda qaldı. Sonralar istər klassik komediyalarda, istər tərcümə edilmiş, istərsə də müasir əsərlərdə neçə-neçə komik personajlar yaratdı, lakin onların heç birisi Vəlini üstələyə bilmədi.

Doğru deyirlər ki, incəsənət qurban tələb edir. Şəkidə ticarətçi ailəsində doğulan Lütfəli Abdullayev də bu yolu seçəndə onun üçün asan olmadı. Yaxınlarının, doğmalarının qınaq obyekti oldu, məsxərəyə qoyuldu gələcəyin bu böyük sənətkarı. Əqidəsindən, tutduğu yoldan dönmədi, ürəyinin səsinə qulaq asdı, içində yatmış yaradıcılıq potensialının, istedadın ona nə vaxtsa şöhrət gətirəcəyinə, onun haqqında mənfi düşüncələri dəyişdirə biləcəyinə inamla teatra, səhnəyə daha çox bağlandı, öyrəndi, təkmilləşdi, Azərbaycan tamaşaçısına təbii, içdən gələn, göz yaşardan, ruhunu təzələyən gülüş bəxş etdi, sevinc yaşatdı.

Hansı sahə olur-olsun, orada məktəb yaratmaq çətin bir işdir, lakin Lütfəli Abdullayev buna da möhür vurdu. Sonralar Musiqili Komediya Teatrının tarixinə adını yazan Bəşir Səfəroğlu, Hacıbaba Bağırov, Siyavuş Aslan və b. aktyorlar məhz bu məktəbdən öyrənmişdilər.

Lütfəli Abdullayev böyük iradə sahibi, qətiyyətli bir insan idi. Elə şəxsi həyatında da. Sənətdə yüksəlişə, zirvəyə çatanadək necə səbirlə gözləmişdisə, öz ilk sevgisinə də qovuşmaq üçün illərini vermişdi. Bir vaxt "xalq düşməni" kimi damğa vurulan nəslin nümayəndəsi olan Sevda xanımla evlənməsinə mane olan, əngəl törədən, hətta onu hədələyənlərdən belə qorxmamış, çəkinməmişdi. Sözünə bütöv idi. Özü demişkən: "Zülümov dedi, qurtardı!"

Onun tərəf müqabili sarıdan bəxti gətirmişdi. Bəşir Səfəroğlu ilə birgə yaratdıqları obrazlar nə qədər sevilirdisə, onun səhnəmizin əbədi qayınanası Nəsibə Zeynalova ilə dueti də bir o qədər sevgi ilə qarşılanırdı. Bu cütlüyü doğrudan da hamı sevirdi. Sənətin böyüklüyü, gücü də elə bundadır...

Səhnəmizin gülüş ustaları, xalq artistləri, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu. Bu adı onlara xalqın sevgisi qazandırmışdı. Zaman-zaman bu böyük ustadlar haqqında yazanlar, sənətşünaslar görün necə adlandırmışdılar onları: "gülüş kralı", "Musiqili Komediya Teatrının qranit sütunları"...

Onlar ulduz idi, sənət, səhnə ulduzu. Deyilənə görə ulduzlar isə heç vaxt sönmür, sadəcə yerlərini dəyişir...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**